# 1991-ci ilin 20 Yanvar günü

**20 Yanvar faciəsindən 26 il keçir. Neçə 26 illər də keçəcək, 19 yanvar gecəsinin dəhşətləri unudulmayacaq. Tarix o gecənin mahiyyətini yaxşı bilir. O gecə azadlığa, müstəqilliyə ad olan gecəydi. O gecə imperiya Azərbaycanda azadlıq məfkurəsini qanla boğmaq istəyirdi. Buna qadir olmayacağını bilsə də, adi şənbə gecəsini qanlı şənbəyə döndərdi, özünə ölüm hökmü yazdı...**



İmperiyanın əsarət, ilhaq zənciri qırıldı həmin gecə. Həmin gecə müstəqillik manifestinin başlanğıcı oldu...

Əsrin əvvəllərinə kimi Çəmbərəkənd qəbiristanlığı olan ərazi Şəhidlər xiyabanına çevrildi; tarixə göz dağı kimi.

1991-ci il 20 Yanvar faciəsinin ildönümü idi...

Minlər, milyonlar gələcəkdi Şəhidlər xiyabanına ziyarətə. Azərbaycan Televiziyası xalqın şəhidlərə, şəhidliyə münasibətini dünyaya canlı yayımla çatdıracaqdı.

Aparıcılardan biri jurnalist Telman Nəzərli idi. Həmin günü Telman belə xatırlayır:

-Ədəbi-dram verilişləri baş redaksiyasında işləyirdim. Yanvarın 19-da mənə dedilər ki, səni sədrin müavini Nahid Hacıyev axtarır. Getdim. Qayğılı idi, bir qədər də düşüncəli idi. Davamlı baxışlarla məni süzdü. Gecdən-gec "Mirzə" - dedi. "Sabah Şəhidlər xiyabanında canlı yayımdı. Aparıcılardan biri sən olacaqsan. Mənim zəmanətimlə". Tutuldum. Düzü, belə bir təklifi gözləmirdim. Böyük məsuliyyət idi. Belə bir müqəddəs yerdən canlı yayımın aparıcısı olmaq məni vahimələndirirdi. Səhər saat səkkizdən axşam saat səkkizə kimi nələrdən danışacaqdım? İnformasiyalarım kifayət edəcəkdimi? Danışacaqlarım 19 yanvar gecəsinin mahiyyətini açmağa yetərli olacaqdımı?

Məni düşüncələrin sıxılcımından Nahid müəllim qurtardı...

Hiss edirdim ki, qəlbim şəhidliklə, Şəhidlər xiyabanı ilə döyünür. Mənə elə gəlirdi ki, bu döyüntüləri bütün dünya eşidir.

Mətn olmayacaqdı. Nahid müəllim belə də dedi:

-Mətn yoxdu. Olmayacaq. Jurnalist kimi də, şair kimi də sinən doludur. Öhdəsindən gələrsən. Bacaracaqsan. Sənə inanıram, inanırıq...

Səhər saat səkkizin yarısında Şəhidlər xiyabanındaydım. Öyrəndim ki, digər aparıcılar da burdadır. Qeydlərimlə maraqlandılar.

-Qeydlərim yoxdu, - dedim. - Bildiklərimdən, düşündüklərimdən danışacağam. Bura qeydlərlə gəlməyi şəhidlərimizin uca ruhuna yaraşdırmadım.

Canlı yayımın rejissoru Nazim Abbas söhbətə müdaxilə etdi:

-Rəhbərlik belə məsləhət görüb. Telman necə, nələr danışacaq, özü bilər.

Etimad, təbii ki, məsuliyyətimi artırırdı. 19 yanvar gecəsinin şahidi olmuş jurnalist üçün nəsə danışmaq o qədər də çətin olmazdı. Məhz o nələr məntiqlə, dünənlə-sabahla əlaqələndirməklə danışılmalıydı. Buna nail olacağıma inanırdım.

Möhtəşəm canlı yayım başlayanda onsuz da axşamdan bəri məni üzən həyəcan daha da artmışdı. Şəhidlər xiyabanına gələnləri görüncə, sözün əsl mənasında, nə deyəcəyimi bilmirdim...

Bir neçə çıxışdan sonra, necə deyərlər, dilimin düyünü açıldı. Aparıcı həmkarlarım da aparıcılığımı bəyənmişdilər deyəsən. Az sonra Nahid müəllimdən xəbər gəldi ki, belə də davam elə, eladır. Öhdəsindən gəlirsən, faciəyə, ümumən hadisələrə bədii biçim verə bilirsən.

Bunlar mənə əlavə güc verdi elə bil, düşüncələrimi əməlli-başlı durultdu.

Ana fəryadıyla, bacı naləsiylə, hər şey deyən sükutla, fon kimi təqdim edilən muğamlarımızla vəhdətdə aparıcının dedikləri cılız görünməməliydi. Bunu bütün dünyanın gördüyünü, dinlədiyini də nəzərə almalıydıq. Xalqın azadlıq, müstəqillik mücadiləsi ildönümdə canlı yayımın "mübtədasıydı" və biz bunu çatdıra bildik...

Axşam televiziyaya qayıdanda rəhbərlik təşəkkürünü bildirdi. Nahid müəllimin "Səni göndərməkdə yanılmamışam" kəlmələrini unuda bilərəmmi?! Nahid müəllim canlı yayımda dediyim ilk kəlmələri də xatırladı: "Bu gün Borçalının da, Dərbəndin də, Təbrizin də qəlbi bu müqəddəs məkanda, Şəhidlər xiyabanında döyünür..."...

...O qanlı şənbə gecəsindən 26 il keçir. Nə qədər biz varıq, hər il yanvarın 20-si günü canlı yayım olacaq. Şəhidlər mənəviyyat zirvəsidir axı...

Söhbətləşdi:

✍ **Rəşid Faxralı**